*UOT 82-09*

***M.A.Rəcəbova***
*Bakı Slavyan Universiteti*
*melake_elyasova@mail.ru*

# QORXU BİOLOJİ, SOSİAL VƏ EKZİSTENSİAL FAKTOR KİMİ (İSA HÜSEYNOVUN "KOLLU KOXA" VƏ "FACİƏ" POVESTLƏRİ ƏSASINDA)

***Açar sözlər:*** *arzu, qorxu, travma, faciə, ölüm*

Tədqiqat üçün seçdiyimiz hər iki povestdə qorxu və onun növləri, insan həyatına mənfi və ya müsbət təsirləri araşdırılmışdır. İsa Hüseynovun "Kollu Koxa" və "Faciə" povestlərində qorxuların insan həyatının necə faciəyə çevirməsi, sevdiklərini qoruya bilməmək qorxusu, sevdiklərini itirmək qorxusundan gizlədilən həqiqətlər, gizlədilən həqiqətlərin arzuları məhv etməsi və qorxunun insan həyatına mənfi təsiri kimi prizmalardan tədqiqata cəlb olunmuşdur. Bioloji, sosial və ekzistensial qorxuların bədii mətndə proyeksiyası, ömürlük qorxuların nəticəsində yaranan posttravma araşdırılmışdır. Hər iki povestdə biz qorxunun hər üç növünə rast gəlirik ki, "Kollu Koxa" povestində insanların əsas qorxuları sosial statusunu itirmək idisə, "Faciə" povestində isə əsas məsələ ailəsini itirmək qorxusu idi. Hər iki povestdə obrazların qorxuları onların faciəsinə çevrilir.

***М.А.Раджабова***

# СТРАХ КАК ФАКТОР БИОЛОГИЧЕСКИЙ, СОЦИАЛЬНЫЙ И ЭКЗИСТЕНЦИАЛЬНЫЙ (НА ОСНОВЕ ПОВЕСТЕЙ ИСЫ ГУСЕЙНОВА «КОЛЛУ КОХА», «ТРАГЕДИЯ»)

***Ключевые слова:*** *желание, страх, травма, трагедия, смерть*

В данном исследовании на примере двух повестей анализированы страх и ее виды, биологические, социальные и экзистенциальные страхи и их проекция в художественном тексте. На примере повестей Исы Гусейнова «Коллу Коха» и «Трагедия» показано их влияние на человеческую жизнь, анализировано, как страх превращает человеческую жизнь в трагедию, как впоследствие страха люди боятся потерять любимых, причиной того, что скрывают правду. Скрываемая правда в конце концов убивает человеческую мечту. В каждой из этих двух повестях можно выделить с названными тремя видами страха. В повести «Коллу Коха» основной страх – социальный: страх потери социального статуса; в повести «Трагедия» основой повествования становится страх потерять семью. В итоге страх как экзистнция превращается в трагедию героев.

***M.A.Rajabova***

## FEAR AS A BIOLOGICAL, SOCIAL AND EXISTENTIAL FACTOR (BASED ON THE STORIES OF ISA HUSEYNOV "KOLLU KOCHA", "TRAGEDY")

***Keywords:*** *desire, fear, trauma, tragedy, death*

This study analyses a fear and its types, biological, social and existential fears and their projection in a literary text. On the example of Isa Huseynov's two stories "Kollu Koch" and "Tragedy" is researched impact of dismay on human life, turning a reason for tragedy. These novels represent human's fate in front of anxiety to loss beloved ones, describe desperation as a reason for hiding the truth. Any of kinds of apprehension eventually kills the human dream. Both of two stories distinguish abovementioned three types of fear. The novel "Kollu Koch" focuses on a is social concern of losing social status, while in the story "Tragedy" tension concentrates on worry about losing a family. As a result, fear as an existence turns into a tragedy of heroes.

Tədqiqat üçün seçdiyimiz İsa Hüseynovun "Kollu Koxa" (1966) və "Faciə" (1963) povestlərində "sosial qorxu"nun insanların həyatlarını necə faciəyə çevirməsi, sevdiklərini qoruya bilməmək qorxusu, sevdiklərini itirmək qorxusundan gizlədilən həqiqətlər, gizlədilən həqiqətlərin arzuları məhv etməsi və qorxunun insan həyatına mənfi təsiri kimi prizmalardan təqdim olunur.

Qorxuların növləri haqqında sosial elmlərdə və neyrobiologiyada fərqli təsnifatlar vardır. Onlardan biri də Y.V.Şerbatıx tərəfində irəli sürülmüşdür ki, o, bütün qorxuları üç qrupa ayırır: bioloji, sosial, ekzistensial. Birinci qrup insanın həyatı üçün təhlükə ilə birbaşa əlaqəli olan qorxuları, ikinci qrup insanın sosial statusunun dəyişdirilməsi ilə bağlı qorxu və qorxuları təmsil edir, üçüncü qrup qorxu insanın mahiyyəti ilə bağlıdır, bütün insanlara xasdır. Sosial qorxular insanın həyatı və ya sağlamlığı üçün deyil, onun sosial statusu və ya fərdin özünə hörməti üçün təhlükə yarada bilən situasiyalardan (nitq qorxusu, sosial təmaslar, məsuliyyət və s.) səbəb olur. Ekzistensial qorxular intellektlə əlaqələndirilir və insanın həyatına, ölümünə və mövcudluğuna aid problemlərə dair düşüncələrdən qaynaqlanır. Bu, ölüm qorxusu, zaman, insan varlığının mənasızlığı və s. [5]. Qeyd etdiyimiz məsələlər yaşam boyunca sosial münasibətlər nəzdində formalaşır. "Sosioloji və təşkilati araşdırmalar da göstərir ki, insanların qorxuları təkcə onların təbiətindən asılı deyil, həm də onların qorxunun nə vaxt və nə qədər yaşanacağına dair anlayışlarını müəyyən edən sosial münasibətləri və mədəniyyəti ilə formalaşır" [10].

İndi isə bədii mətnlərdə bioloji, sosial, ekzistensial qorxuların necə proyeksiya etməsini və bu qorxuların hansı məqamlarda üzə çıxmasını araşdıraq.

**İnsanların qorxduğu ləqəblər sosial qorxu kimi.** Əsərin baş qəhrəmanı olan Koxa vasitəsilə insanların mənfi xüsusiyyətlərini özünəməxsus şəkildə tənqid etməyə çalışmışdır ki, onun bu xüsusiyyət zamanla kənd camaatının qorxulu yuxusuna çevrilmişdir. Baxmayaraq ki, əsərin baş qəhrəmanı Koxa adi bir suçudur və insanlara ləqəb-laylağı yaraşdırmaq ona atası Çopur kişidən keçib. Povestin ilk sətirlərindən onun laylağıları yumoristik görünsə də, əslində tam bir faciədir. "Məsələyə bələd olandan sonra görəcəksiniz ki, ilk baxışda çox adi, hətta gülməli, duzlu-məzəli bir əhvalat kimi görünən bu ləqəb əhvalatı, əslində dəhşətli və mənim üçün işgəncəli əhvalatdır" [4, s.359].

"Kollu Koxa əsərinin baş qəhrəmanı adamlara öz hərəkət və əməllərinə, dünyagörüşlərinə, həyata baxışlarına, insana münasibətlərinə, cəmiyyət içərisində özlərini aparma rəftarına görə elə dürüst ayamalar, ləqəblər verir ki, bu ayamalar dərhal el arasında müsbət rezonans verir, ayama sahibləri Kollu Koxadan ilandan qorxan kimi qorxurlar, onu görəndə özlərini itirirlər və yeganə çarələri ona qalır ki, onlara istinad edilən qüsurları aradan qaldırsınlar! Açıq ittihamdan, üzbəüz məzəmmətdən, öyüd-nəsihətdən, direktiv və hökmlərdən, hətta həbsdən belə qorxunc olan fenomenal bir üsul. İnsana, insan xarakterinə, insan mənəviyyatına, könül dünyasının incəliklərinə, hiss və duyğularının mürəkkəb xaosuna cəsarətli müdaxilə İsa Hüseynovun qələminə xas olan təqdirəlayiq, sınanmış xüsusiyyətlərdən biri də güclü, təsirli, sirayətedici detalların təsviri idi" [3, s.8-9].

Povestdə qorxu motivi fərqli istiqamətdə təhlil oluna bilər. Məsələn, insanlar Koxanın özündən deyil, onlara qoşduğu və qoşacağı ləqəblərdən qorxur və çalışırlar ki, onunla rastlaşmasınlar və onu görəndə özlərini yaxşı aparmağa cəhd edirdilər. Bəlkə də onun insanlara qoşduğu ləqəblərdən çəkinərək; çünki o, həmişə deyirdi ki, *qoşduğu ləqəblərin hər birinin öz mənası var*. Koxa ona arxa olan, öz evində saxlayan Cavanşirə də ləqəb qoşmuşdu, amma nədənsə bu ləqəb sonra dəyişdi. Onun sədrə qoşduğu ilk ləqəb "Cəfalı Cavanşir" idi və Koxa bu ləqəbi də elə-belə qoşmamışdı. Cavanşirə "Cəfalı" ləqəbini çəkdiyi bütün əziyyətlərə görə qoymuşdu, sonradan isə ona "Limbuz" ləqəbini verdi. "Mən Cəfalı deyirdim sənə, çünki o vaxt doğrudan da cəfa çəkirdin. Daha Cəfalı deyilsən, Limbuz Cavanşir!" [4, s.397]. Bəs Limbuz ləqəbinin mənası nə idi? Çünki vaxtilə Qılınc Qurbanla Cavanşirin tanışlığı "Buzlu limonad" ilə başlamışdı və bu ləqəbin də açıqlaması bu idi. "Bir şüşə limonadnan bir dolça buza iki maşın aldın bu möhtərəm bolşevikin adıynan. İl quraqlıq keçdi, min hektar sahə yandı. Min hektar yer əkən, min hektar yer suvaran qaracalı nə yeyəcək, a Limbuz Cavanşir?! - deyə bar-bar bağırırdı" [4, s.396]. Koxanın laylağıları zamanla insanların sosial qorxularını üzə çıxardı ki, bu qorxuların qurbanlarından biri də Cavanşir idi. Cavanşirin ona etdiyi bütün yaxşılıqlara görə əvvəl Cəfalı deyirdisə, sonra onun dəyişən statusuna görə

məhz onu Limbuz ləqəbi qoşdu. Cavanşir əvvəl öz yurdunun camaatı üçün çalışırdısa, sonradan vəzifəsi dəyişdikdən sonra artıq Qaracalılar üçün deyil, öz xeyrinə işləməyə başladı ki, bundan sonra ləqəbi də dəyişdi.

Koxanın zərbələrinin ardı-arası kəsilmirdi və bu deyilən bütün sözlər düz idi, çünki Koxa da atası kimi həmişə qaracalıların yaxşılığını düşünmüş və əlindən gələni etməyə çalışmışdı. İnsanlara qoyduğu ləqəblərin bəzi isə onlara verilən dəyərə görə idi, onlardan biri də Pəpə-Kökə nənə idi. Koxa onu Cında adlandırırdı. "– Bilirsənmi niyə Cında qoymuşam Pəpə- Kökə nənəmizin adını? Onun nəvələriynən işim yoxdu, uzaqdadılar, əlim çatmır. Səndən xəbər alıram ki, Pəpə-Kökə nənə niyə dönüb Cında olub?! Çünki pəpəsini, kökəsini yeyib, özünüzün əliniz pəpəyə çatandan sonra onu lazımsız cında təki atıbsınız" [4, s.396].

Dəmir kişiyə niyə "Dingə" deməsinin də açıqlaması var idi. Dəmir kişi otuz il idi ki, Qaracalarda suçuluq eləyirdi və bir gün naxoşlayib həkimə gedir, həkim bildirir ki, peşəsini dəyişməlidir. Dəmir kişi neçə dəfə Sədrə müraciət etsə də nəticəsi olmur. Və bir mollaya gedir və elə bu ləqəb də buradan yaranıb. "Molla da lotunun birisi, baxıb Dəmir kişinin təhər-tövrünə, deyib oğluyun üstündə bədnəzər var, dingə qoy başına baxıb gülsünlər, bədnəzər sovuşub getsin…" [4, s.397].

Əsas məsələ Qılınc Qurbanın dönüb "Podrat Qurban" olması və bunun açıqlaması isə bu idi ki, Cəfalı Cavanşirin dönüb "Limbuz Cavanşir" olduğu gün, elə Qılınc Qurban da "Podrat Qurban" oldu. "- Afərin, Cavanşir Ocaqov! Sənin kolxozunu şəxsən podrata götürürəm" [4, s.367].

"Digər povestlərində daim at belində, məğrur görkəmdə gördüyümüz vicdan mücəssəməsi olan Qılınc Qurbanı burda məğlub durumda görürük. Qılınc Qurbanın Kollu Koxanın dəmir məntiqi qarşısında aciz duruma düşməsi məni ilikləriməcən sarsıtmışdı" [1, s.19].

**Sosial qorxu növü: insanların hörmətini və vəzifəsini itirmək.** Cavanşir anlayırdı ki, bu hadisələrdən sonra o, artıq sadəcə hörmətli vəzifəsini deyil, hətta camaat arasında da hörmətini itirib. Məhz insanların hörmətini və vəzifəsini itirmək onun sosial qorxularını üzə çıxarırdı.

"Daha qapılar qarşımda öz-özünə açılmayacaq, geri qalmış bir kolxozun sədri olduğum halda məni görəndə ehtiramla baş əyən adamlar indi bir verstlikdən qaçacaqlar, nəinki restorana, pavilyona dəvət etməyəcək, ciblərimi şokoladla doldurub "uşaqların yanına əliboş getmə" deməyəcəklər, əksinə "Limbuz! Limbuz!" – deyib ələ salacaqlar!" [4, s.398].

Bəzən qorxularımız hisslərimizi və düşüncələrimizi məhdudlaşdırır, bizi səhv addımlar atmağa vadar edir. Məhz povestdəki Cavanşir obrazı da qorxularına qalib gəlmək üçün düzgün addım atmaq yerinə səhv istiqamətə yönəlir. Əslində o, Koxanın ona qarşı olan tənqidlərini düzgünlüklə düzəltməyə çalışsaydı, sonda öz qorxularına yenilməzdi. Amma *Cavanşir etdiyi səhvləri*

*düzəltmək əvəzinə sadəcə özünün və Qılınc Qurbanın camaat arasındakı statusunu qorumaq üçün Koxanı məhv etməyə* çalışdı. "Fikrimdə yalnız bu idi ki, nəyin bahasına olur-olsun, Qurban kişinin yüksək, ləkəsiz adını öz mövqeyində saxlamalı və özüm də o mövqedən yapışıb dayanmalıyam. Bunun üçün isə bircə vasitə var: Koxanı məhv etmək!.." [4, s.399].

Məhz bu povestdə də sosial qorxular insanların faciəsinə çevrildi və əsas hədəf isə Cavanşir və Qılınc Qurban oldular. Çünki onlar zamanla öz sosial statuslarını dəyişməklə bu qorxulara məruz qalmışdılar. Həyatda qorxmaz insan yoxdur, öz qorxularına qalıb gəlib güclənən insanlar var ki, onların özlərinə inamı qorxularından daha üstündür.

"Qorxu hissi hər bir insana xasdır, onu yalnız bəzi insanlar idarə edə bilir, bəziləri isə bacarmır. Həddindən artıq qorxu insanın yaşamasına və inkişafına mane olur. Qorxuya qarşı əsas silah ağıldır. İnsanın həyatında əsas qorxu onun dərk etməkdən qorxduğu həqiqətdədir. İnsanlar hər kəsi aldada bilər, amma özünü yox" [8].

Bu hadisələrin sonunda artıq Cavanşir anlayırdı ki, Koxanın həmişə ləqəblər haqqında danışanda dediyi bu cümlə nəyi ifadə edirmiş: "Millətin özü də gözəl olmalıdı, adı da!" [4, s.398]. Məhz bu səbəbdən idi ki, Koxa insanların səhvlərini öz "laylağı"ları ilə düzəltməyə çalışırdı. O, insanların adlarını əməllərinə, etdiyi səhvlərə görə ləqəb ilə əvəzləyərək dəyişir, bu üsulla onları düzgün addımlar atmağa səsləyirdi.

"Qəhrəmanlarımız qorxularını şəxsiyyətə, tarixə, mədəniyyətə, təhsilə, tərbiyəyə, sosial standartlara və bir sıra digər həyat təcrübələrinə uyğun olaraq hərəkətə və daxili reaksiyaya çevrilən unikal üsullarla göstərir" [9]. Məhz bu üsullarla biz obrazın xarakterini təyin edə bilir və onun xarakterini formalaşdıran amilləri təyin edə bilirik.

İsa Hüseynovun "Teleqram" (1963) povesti son illərdə nəşr olunan kitablarda "Faciə" adlanır. Əsərin baş qəhrəmanı Zəlimxan obrazıdır. Süjet xəttinin əsasını təşkil edən hadisələr və sonrakı bədbəxtliklər Mayılovlar ailəsində cərəyan edir. Əsərin ilk sətirlərində 19 il əvvəl baş vermiş hadisə qısa icmal olaraq təqdim olunur.1942-ci ilin payızında Sabit Mayılovun ailəsində bədbəxt hadisə baş vermişdi, oğlu Zəlimxan qardaşı oğlunu təsadüfən tüfənglə güllələmişdi. "Yadına düşəndə indi də Zəlimxanın tükü ürpənir; əlində tüfəng açılanda, qardaşı Qaraxanın üç yaşlı oğlunun necə yıxıldığı, ağbəniz, göyçək uşağın hündür, bir az qabarıq alnının ortadan necə partlayıb dağıldığı gəlib gözlərinin qabağında durur" [4, s.271].

**Qorxu mənəvi travma kimi. Ekzistensial qorxu.** Baş verən hadisə Zəlimxanın həyatında çox dərin, acı izlər buraxdı və bu hisslər sadəcə qorxu deyil, hadisənin dəhşətini yaşayan insanın mənəvi travması idi. Zəlimxan ömrü boyu baş verən hadisənin peşmançılığını yaşadı və bu bədbəxtlik onu ailəsindən uzaq saldı. Atası Sabit Mayılovdan fərqli olaraq, qardaşı Qaraxan oğlunu itirsə

də, qardaşından üz döndərmədi, bu çətin məqamda qardaş dəstəyini əsirgəmədi, çünki o başa düşürdü ki, Zəlimxan bunu bilərəkdən etməyib, sadəcə bədbəxt hadisə olub. "Mənim xallı qaqaşım, qovğalı-qallı qaqaşım. Başımıza nə gəldisə, hamısı Allahın işidi. Səndə nə taqsır var, qurbanın olum?!" [4, s.271].

Buna rəğmən Zəlimxan obrazının dərin psixi və ya mənəvi vəziyyəti, həyatın mənası ilə bağlı etibarsızlığı və ümidsizliyi əsərin əvvəlindən sonuna qədər davam edir. Bu tip qorxu ekzistensial qorxu kimi klassifikasiya olunur. Çünki o, baş verən bədbəxt hadisədən sonra ömrü boyu özünü bağışlaya bilmir, ailəsi tərəfindən olan basqılar isə onu ümidsizliyə düçar edir, artıq heç nə əvvəlki kimi olmayacaqdı, bunu o da başa düşürdü.

Bu illərdə Zəlimxanın başına gələn tək bədbəxt hadisə bu deyildi, 19 il ərzində o, atası tərəfindən evdən qovulmuş, nişanlısını tərk etmək məcburiyyətində qalmış və bu səbəblərdən o, doğma ailəsindən, el-obasından uzaqlaşmışdı. Bir il sonra qardaşı Qaraxanın "Atan can üstədir, tez gəl" [4, s.272] teleqramı ilə kəndə qayıtmışdı. Bədbəxt hadisədən 19 il keçməsinə baxmayaraq, acı xatirələr əvvəlki kimi Zəlimxanı incidirdi və o, bütün keçmişini yenidən xatırlayırdı, ayağı altında kəsilən qurban sanki ona həmin faciəvi günü xatırlatdı. Axı illər əvvəl baş vermiş hadisə onda öz dərin izlərini buraxmışdı. "Boz şinelin ətəyinin altından siyrilib çıxan ağdəstə xançalın tiyəsi parıldadı, ətrafdakı ocaqların az-maz aydınlaşdırdığı bu torada qaraya çalan qan fəvvarə vurdu: Beşaçılan guruldadı, *üç yaşlı körpənin qanı qoçun qanına qarışdı*" [4, s.282].

**Ailəsindən ömürlük ayrılmaq qorxusu**. Zəlimxan kəndə çatanda öyrəndi ki, atasının heç bir xəstəliyi yoxdur, onu kəndə gətirməkdə məqsəd nişanlısı Zümrüd ilə barışdırmaqdır. Onun xəbəri olmadan atasının nişanlısını evə gətirdiyini öyrənəndə Zəlimxan etiraz edir və bir il əvvəl keçirdiyi hisslər və hadisələri xatırladı, yenə də atası tərəfindən evdən qovulacağını hiss edirdi. "Deməк vəziyyət təkrar olunurdu?! Evdən ikinci dəfə qovulmalı idi?! Buna imkan vermək ömürlük ayrılıq deyilmi?!" [4, s.287]. Ailəsindən ömürlük ayrılmaq Zəlimxanı qorxudurdu və o, hər vəchlə atası ilə danışmağa, ortaq dil tapmağa çalışırdı, amma atası onu eşitmək istəmir və oğlunun onun dediklərini yerinə yetirməsini tələb edir.

"Qorxu insanın həyatının əsasını təşkil edir, onun stresli və narahat vəziyyətlərinin, axtarışlarının, atılmasının, unudulmasının mənbəyinə çevrilir. Qorxudan yaranan külli miqdarda neqativ emosiyalara baxmayaraq, bununla belə, o, təkcə varlığın mahiyyətinə deyil, həm də öz mənliyinə nüfuz etməyə kömək edir. Qorxu ya insanı intizamlı, təsirli, təcrübəli və müdrik edir, ya da insan onun güclü təsiri altında əzilir. Təzyiq onun varlığını faciəvi ümidsizliyə çevirir" [6].

Keçmişə qayıdaq və bir-birini sevən iki gəncin ayrılma səbəblərinə nəzər salaq. Əslində Zəlimxanın ondan üz döndərməsinin günahkarı Zümrüd

deyildi, çünki baş verən hadisələr onun ətrafında cərəyan etsə də, Zümrüd bunlardan xəbərsiz idi. Fikrimizcə, Zümrüd atasının səhvləri ucbatından bütün bu əzab-əziyyətlərə məruz qalırdı və Zəlimxanın ondan üz döndərməsi onun üçün ən böyük əzab idi. "Keçən ildən bəri yasa batıb yazıq qız; sənin gördüyün o oynar-gülər Zümrüddən əsər-əlamət qalmayıb, xəzan vurmuş yarpağa dönüb" [4, s.278].

"Teleqram" povestində İ.Hüseynov daha ciddi və əhəmiyyətli problemlər qoymuşdur. Əsərdəki hadisələr Mayılovlar ailəsi çərçivəsindən kənara çıxmır. Lakin əsərin bir ailə fonunda həll etdiyi mühüm ictimai-əxlaqi məsələlər məhdud xarakter daşımayıb, doğma yurduna, onun zəngin təbiətinə məhəbbəti olan namuslu adamların hamısının düşüncəsini məşğul edir" [3, s.28].

Meşələrin qırılması, yaşıllıqların məhv edilməsində qayınatası Əziz əminin də rolu olduğunu öyrənəndə Zəlimxan nişanlısı Zümrüdü baş verən hadisələrdən uzaq tutmağa çalışdı, amma fikrimizcə, bunu düzgün şəkildə etmədi. Hamının gözü qabağında Kərəm əminin meşəni məhv etmə işlərinə mane olmasın deyə Əziz əminin bircə qızına – Zümrüdə verdiyi bahalı hədiyyələri geri qaytarmasını istəməsi çox pis oldu. "Əziz əminin əziz balası" üçün gətirdiyi hədiyyələrin hamısını qaytarmaq lazımdır" [4, s.327]. Baş verənlər iki nişanlı arasında böyük uçurum yaratdı. Bəlkə də, Zəlimxan təklikdə Zümrüdə baş verənləri danışsaydı və onu məsələdən agah etsəydi, hər şey yaxşı sonluqla bitərdi. Lakin hadisələr pis yöndə getdi; Zəlimxan atası tərəfindən oğulluqdan çıxarıldı və evdən qovuldu.

Beləliklə, əsəri oxuduqca anlaşılır ki, Zəlimxanın faciəsi 19 il əvvəl baş vermiş bədbəxtliklə başlamış və sona qədər davam etmişdi, çünki Zəlimxan bu illər ərzində qazandığı sevgini, sevdiyi qızı və doğma ailəsini itirmişdi. Baş verən hadisələrdə biz birbaşa Zəlimxanı günahlandıra bilmərik, çünki *o, sevdiklərini itirməmək üçün çalışsa da,* nəticə yaxşı olmur və Zəlimxan sevdikləri tərəfindən yanlış anlaşılır. Əslində isə o, öz ailəsini baş verən çirkinliklərdən uzaq tutmaq və onları bu hadisədən agah etmək istəyirdi. Əsərin sonunda yenə də illər əvvəl baş verən bədbəxt hadisədə onu tək qoymayan qardaşı Qaraxan yenə də onun köməyinə yetir.

Zəlimxanın qorxuları onun arzularının qarşısında keçilməz sədd kimi durur və sonda qorxuları arzularına qalib gəlir. Zəlimxan Zümrüdü cəmiyyətin çirkinliklərindən qorumağa çalışdıqca, onu özündən daha da uzaqlaşdırır və sonda saf məhəbbətlə sevdiyi nişanlısı da ondan üz döndərir. Bəlkə də, Zəlimxan fərli mövqe seçə bilsəydi və addım atmaqda tələsməsəydi, öz qorxularına yenilməsəydi, hər şey başqa cür ola bilərdi.

**Posttravma ömürlük davam edən qorxular kimi.** Zəlimxanın simasında ömürlük davam edən qorxuları posttravma kimi klassifikasiya etmək olar. Çünki Zəlimxan bədbəxt hadisə nəticəsində qardaşı oğlunu itirmiş, illər

ərzində sevdiklərindən uzaq qalmışdı. İndi isə yenidən o günlərin təkrarlanma ehtimalı Zəlimxanın qorxulu yuxusuna çevrilir. Məhz baş verən hadisələrin nəticəsində sevdiklərini itirmək qorxusu Zəlimxanın arzularının yarımçıq qalmasına səbəb olur. Qorxular böyük bir ailənin – Mayılovların fəlakətinə çevrilir. Fəlakətin nəticəsi ağır oldu, bu ağırlıq təkcə Zəlimxan və Zümrüd üçün deyildi; ata, oğul, qardaş itkisi və daha nələr...

"Travmatik hadisələrin təsiri fərdlərə, ailələrə və cəmiyyətlərə ağır yüklər qoyur. Travmatik bir hadisə ilə qarşılaşan bir çox insan uzunmüddətli mənfi təsirlər olmadan həyatlarına davam etsə də, digərləri çətinlik çəkəcək və travmatik stress reaksiyaları yaşayacaqlar. Bir insanın travmatik təcrübəyə necə reaksiya verməsi şəxsidir" [7]. Məhz "Faciə" povestində də baş verən hadisələr Zəlimxanda sağalmaz izlər buraxdı.

Əsərin ilk sətirlərində Zümrüdlə münasibətində və onların ayrılıqlarının səbəbkarı kimi biz əsasən Zəlimxanı görürük və ilk sətirlərdə bir oxucu kimi düşünürdüm ki, sevən bir insan necə sevdiyindən vaz keçə bilər axı?! Əsəri oxuduqca məlum oldu ki, Zəlimxan öz sevgisindən vaz keçməyib, baş verən hadisələrə göz yuma bilmədiyi üçün nişanlısından uzaq durur. Zəlimxanın atası tərəfindən qovulduqdan sonra meşədə qardaşının hər an arxadan gəlməsini gözləməsinin səbəbi Zümrüd idi. "Zəlimxan illər uzunu beşaçılan gurultuları ilə dolu, üzüntülü təmkinini itirmədən ardıcıl gərginliklə diqqətini cəmləməyə, beynində qu tükünə çevrilib üzən bir fikri tutmağa çalışdı və tapdı ki, Qaraxanı gözləməsinin bir səbəbi də Zümrüd haqqında yeni düşüncələridir. Nə qədər təəccüblü olsa da, həqiqət belə idi ki, indi o, Zümrüdün qarşısında özünü günahkar kimi hiss edirdi" [4, s.294].

Niyə illər əvvəl hadisələr baş verəndə o, özünü Zümrüd qarşısında günahkar kimi hiss etmədi və onu tərk etdi, bəlkə də Zəlimxan düşünürdü ki, nişanlısı hələ də uşaq xasiyyətindədir və baş verənlərin fərqinə varmır. Amma bugün Zümrüdün onun qarşısında dik duruşu və özünü müdafiə etməyi bacarması, onun qarşısında öz sözünü deməsi Zəlimxanın onun haqqında düşüncələrini dəyişdi. "Mən çölə atılmamışam!" [4, s.294]. Fikrimizcə, Zəlimxan qəflət yuxusundan oyandı və o, Zümrüdə qarşı etdiyi haqsızlığı anladı, amma artıq gec idi, heç nə əvvəlki kimi olmayacaqdı...

**Nəticə.** Beləliklə, qorxu haqqında bir çox təsnifatlar mövcuddur ki, onlardan biri də Y.V.Şerbatıxın təsnifatıdır. O, bütün qorxuları *bioloji, sosial, ekzistensial* olaraq üç qrupa bölür. Tədqiqat üçün seçdiyimiz İsa Hüseynovun "Kollu Koxa" povestində biz "sosial qorxu"ların insan həyatına proyeksiyasını problemini araşdırdıq. Və belə bir nəticəyə gəldik ki, povestin qəhrəmanları Kollu Koxanın onlara qoyduğu laylağılardan qorxurdular, çünki bu laylağılar onlara boş yerə verilməmişdi. Koxa onların səhv hərəkətlərini onlara verdiyi ləqəblər vasitəsilə düzəltmək istəyirdi. Məhz povestdə laylağı qoşulan obrazların bir çoxu yüksək vəzifə adamı olduqdan sonra, yəni sosial statusu

dəyişdikdən sonra keçmişini unutmuş, onlara yaxşılıq edən insanları görməzdən gəlməyə başlamışdılar. Cavanşir obrazının da ləqəbinin dəyişilməsi məhz onun sosial statusu ilə bağlı idi. Bir zamanlar o, kəndin camaatının qayğısına qalan və buna görə Cəfalı adlanan Cavanşir, vəzifə əldə etdikdən sonra Limbuz Cavanşir ləqəbinə layiq görüldü. Məhz bu "laylağılar"a görə insanlar arasındakı hörmətini, işdəki vəzifəsini itirmək obrazların sosial qorxularını üzə çıxarırdı ki, povestin sonunda "sosial qorxular"ın insanların faciəsinə çevrilməsinin şahidi oluruq. "Faciə" povestində isə nişanlısı Zümrüdü baş verən mənfiliklərdən qorumaq üçün ondan həqiqətləri gizlədən Zəlimxan daxili qorxusu üzündən sevdiyini itirir. Və gizlədilən həqiqətlər aşkara çıxanda arzuların məhv olmasına səbəb olur. 19 il əvvəl baş verən hadisələrdən sonra sevdiklərini qoruya bilməmək (istəmədən qardaşı oğlunu tüfəngə vurmaq) və onları itirmək qorxusu baş qəhrəmanı rahat buraxmır. Bu hadisə Zəlimxanda posttarvmatik sindromun yaranmasına səbəb olmuşdur ki, ailəsindən uzaq qalmasının əsas səbəblərindən biri də kəndə gələndə bütün keçmiş gözünün qarşısında canlanırdı. Povestlərdə qorxu hissi baş qəhrəmanların həyatına mənfi təsir göstərməklə onun bədbəxtliyinə səbəb olur. Yazıçı əsərdə qorxu hissinin insan həyatındakı proyeksiyasının müxtəlif formalarını oxucuların diqqətinə çatdırmağa çalışmışdır.

## ƏDƏBİYYAT


1. *Hacı K.* "Kollu Koxa"nın həqiqəti, Qılınc Qurbanın məğlubiyyəti. Bakı, "Kaspi" qəz., 2017, 11-13 fevral, s.19
2. *Hüseynov İ.* Kollu Koxa // Azərbaycan, 1967, №5, s.142-180
3. *Hüseynov M.* Janr, zaman və ədəbi qəhrəman (İsa Hüseynovun hekayələri), Bakı: Elm və təhsil, 2012, 156 s.
4. *Muğanna İ.* Seçilmiş əsərləri: 6 cilddə, I c., Bakı: Avrasiya press, 2009, 424 s.
5. *Щербатых Ю.В.* Избавься от страха. М.: Эксмо, 2011, 304 с.
6. *Яковлева Е.Л.* Феномен страха в фокусе литературы: попытка интерпретации "Книги непокоя" Фернандо Пессоа // Litera. — 2019. - № 3. - С.67-74. DOI: 10.25136/2409-8698.2019.3.29449 URL: https://e-notabene.ru/fil/article_29449.html
7. Substance Abuse and Mental Health Services Administration (SAMHSA). Trauma and Violence. https://www.samhsa.gov/trauma-violence
8. Аргументы из литературы и жизни для сочинения на тему: «Что такое страх» (ЕГЭ по русскому языку) / https://literoved.ru/bank-argumentov/argumenty-iz-literatury-i-zhizni-dlya-sochineniya-na-temu-chto-takoe-strah-ege-po-russkomu-yazyku.html
9. Mills D. How to add a layer of fear to your fiction. October 1, 2021 / https://crimereads.com/how-to-add-a-layer-of-fear-to-your-fiction/
10. Morrison R. Страх против страха. 25.09.2021 / https://ru.living-in-belgium.com/fright-vs-fear-9137


Redaksiyaya daxil olub 24.10.2022